

# Azərbaycan Ordusu regionda sabitliyin və sülhün möhkəmlənməsinə xidmət edir

***Vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası isə müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Ulu öndərin uzaqgörən müdrik siyasəti ilə həmin vaxtdan etibarən Silahlı Qüvvələrimizin inkişafı diqqət mərkəzində saxlanıldı. Məhz bunun nəticəsi idi ki, o zaman yeni yaradılan və mərkəzi komandanlığa tabe olan hərbi birləşmələr tərəfindən Ermənistanın güclənən hücumlarının qarşısını böyük mətinliklə alındı, 1993-cü ilin sonu-1994-cü ilin əvvəllərində Füzuli istiqamətində, Murovda yüksək peşəkarlıqla uğurlu hərbi əməliyyatlar keçirilərək çoxsaylı yaşayış məntəqələri, strateji əhəmiyyət daşıyan yüksəkliklər düşməndən azad edildi.***

1994-cü il mayın 12-də atəşkəsin elan edilməsindən sonra ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara start verildi. Tezliklə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Ordunun maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edildi, Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı.

Ulu öndərimizin təhlükəsizlik siyasəti və strategiyası, ordu quruculuğu ilə bağlı reallaşdırdığı işlər dövlətimizin başçısı cənab İlham Əliyevin prezidentlik fəaliyyətinə başladığı ilk gündən uğurla davam etdirilib, hərbi quruculuq məsələsi prioritet istiqamətlərdən biri olub. Xatırladım ki, 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı möhtərəm Prezidentimiz deyib: “Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir”.

Ölkə rəhbəri ötən illər ərzində bu vədinə sadiq qaldı, respublikamızda ordunun gücləndirilməsi ilə bağlı olduqca mühüm işlər gördü, Silahlı Qüvvələrimizdə keyfiyyət və kəmiyyət dəyişikliklərinin yaranmasına nail oldu. Ən müasir döyüş texnikasının alınmasını gerçəkləşdirdi. Əsgər və zabitlərimizin sosial şəraitinin yaxşılaşdırılmasını hər zaman diqqət mərkəzində saxladı. Bütün bunlarla bərabər, döyüş hazırlığının bütün tələblərinin yerinə yetirilməsi üçün beynəlxalq normalara cavab verən əlverişli şərait yaradıldı, irimiqyaslı təlimlər keçirildi.

Ordu quruculuğunda reallaşdırılan mühüm tədbirlərin nəticəsidir ki, 2020-ci ildə Azərbaycan Ordusu “Qlobal Atəş Gücü” (“Global Firepower”) indeksi üzrə 64-cü yerdə qərarlaşıb. Ermənistan ordusu isə bu siyahıda 111-ci yeri tutub. Məhz bu göstəricilər Azərbaycanın müharibədə qalib gəlməsini şərtləndirib.

“Global Firepower”a görə, aktiv döyüş əməliyyatlarının başlandığı dövrdə Azərbaycanın hərbi qüvvələri 426 min nəfər təşkil edib. Ermənistanda isə bu göstərici 1,5 dəfə az – 245 min nəfər olub. Hava qüvvələri baxımından da Azərbaycan Ermənistanı 64-ə qarşı 147 təyyarə və helikopterlə iki dəfədən çox üstələyib.

Bu gün iftixarla, fəxrlə deyə bilərik ki, Azərbaycanın Silahlı Qüvvələri Vətən müharibəsində hərbi əməliyyatlar zamanı ən yüksək səviyyədə innovativ yenilikləri tətbiq edən ordudur. Məhz bunun nəticəsi idi ki, döyüşlərin gedişində Silahlı Qüvvələrimiz möhtəşəm uğurlara imza atdı, döyüş meydanında öz üstünlüyünü dəfələrlə sübut etdi. Erməni tərəfinin təqribən 30 il ərzində işğal olunan torpaqlarda yaratdığı müdafiə xətlərini, mühəndis qurğularını şücaətlə dağıtdı, komanda məntəqələrini, çox sayda hərbi texnikasını, canlı qüvvəsini məhv etdi. Bu, Silahlı Qüvvələrimizin dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsinin əbəs deyilmədiyini təsdiqlədi.

Dövlətimizin başçısı çıxışlarının birində bu barədə deyib: “Ölkələrin hərbi potensialının dəyərləndirilməsi ilə məşğul olan qurumların vaxtaşırı dərc etdiyi reytinqlərə əsasən, Azərbaycan Ordusu dünyanın aparıcı 50 ordusu sırasındadır. Həm peşəkarlıq, həm təlim, həm döyüş qabiliyyəti, ən başlıcası mənəvi döyüş ruhu, əlbəttə ki, Azərbaycan Ordusunun texniki təchizatı da çox cəhətdən bizim uğurumuza kömək edib…”.

Azərbaycan Silahlı Qüvvələri tərəfindən erməni işğalçılarına qarşı aparılan döyüşlər də onun dövlətimizin başçısının vurğuladığı kimi, dünyanın ən güclü orduları sırasında olduğunu təsdiq etdi. Ordu bölmələrimiz harada olursa-olsun, döyüşləri planı şəkildə apardı, xaotikliyə yol vermədi. Döyüş əməliyyatları haqqında Ali Baş Komandan müntəzəm məlumatlandırıldı. Əməliyyatların icrası, yaşayış məntəqələrinin azad olunması planlı şəkildə açıqlandı.

Azərbaycan döyüş əməliyyatları zamanı haqqa, ədalətə söykəndi, beynəlxalq konvensiyalara əsaslandı. Ermənistan isə uğursuzluqdan isterikaya düşərək Azərbaycanın döyüş bölgəsində yerləşməyən rayon və şəhərlərində dinc əhalini, qadınları və uşaqları raket və artilleriya zərbələri ilə atəşə tutdu. Lakin buna baxmayaraq, Azərbaycan Ordusu düşmənin yalnız hərbi obyektlərini hədəfə aldı, hətta mülki əhalinin ziyan görməməsi üçün onları bu cür obyektlərdən uzaq durmağa çağırdı.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz 44 gün davam edən müharibədə möhtəşəm qələbə qazanaraq, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Silahlı Qüvvələrimiz döyüş meydanında Ermənistanın “güclü, məğlubedilməz” ordu mifini birdəfəlik darmadağın etdi.

Azərbaycan Ordusunun nəyə qadir olduğunu isə əməliyyatların zirvəsində gələn Şuşa savaşı göstərdi. Yeri gəlmişkən, Vətən müharibəsində Silahlı Qüvvələrimizin cənub istiqamətində irəliləyişləri inkişaf etmiş texnologiyalardan peşəkar istifadə, rəhbərliyin düzgün planlaşdırması nəticəsində həyata keçirilmişdisə, Şuşada bunun üzərinə heyətin şəxsi peşəkarlığı amili də əlavə olundu. Ümumiyyətlə, Azərbaycanın Vətən müharibəsi müasir döyüş tarixində tamamilə yeni bir səhifənin əsasını qoydu. İyunun 15-də Şuşa Bəyannaməsinin imzalanmasından sonra Prezident İlham Əliyev bəyanatında bununla bağlı deyib: “Şuşa şəhəri işğaldan keçən il noyabrın 8-də azad edilmişdir. Şuşa şəhərini azad etmək böyük qəhrəmanlıq tələb edirdi. Şuşaya gələn hər bir insan bu sıldırım qayalara baxarkən görür ki, bu şəhəri, alınmaz qala sayılan şəhəri götürmək, azad etmək böyük qəhrəmanlıq, peşəkarlıq, şücaət, fədakarlıq tələb edir. Qəhrəman Azərbaycan əsgərləri qan tökərək, şəhid olaraq, sıldırım qayalara dırmaşaraq, demək olar ki, yüngül silahlarla, əliyalın Şuşanı düşmənin əlindən aldı və Azərbaycan bayrağını ucaltdı”.

Azərbaycanın bu möhtəşəm qələbəsi Prezident İlham Əliyevin uzun illər ərzində apardığı uğurlu xarici və daxili siyasətlə bərabər, təkrar edirəm, ordu quruculuğu sahəsində fədakar fəaliyyətinin məntiqi nəticəsidi idi. Dövlətimizin başçısı bu barədə işğaldan azad edilmiş Ağdam şəhərində olarkən bildirib ki, bu gün bir çox ölkələrdə bizim hərbi təcrübəmiz öyrənilir. Hazırda bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib.

Ağdama gələrkən ən azı üç müdafiə xətti gördüyünü söyləyən Prezident İlham Əliyevin deyib: “Amma mənə hərbçilər tərəfindən verilən məlumata görə, beş müdafiə xətti var. Füzulidə də, həmçinin. Biz bu müdafiə xətlərini əsgər və zabitlərimizin qəhrəmanlığı, peşəkarlığı sayəsində yarmışıq. Biz texniki cəhətdən ən müasir silahlarla təchiz edilmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, o videogörüntülər var. İndi onlar bir çox ölkələrdə öyrənilir və öyrəniləcək, hərbi kitablara salınacaq”.

Vətən müharibəsində apardığımız azadlıq mübarizəsi zamanı silah-sursatını qoyub qaçan, fərarilik edən işğalçı Ermənistan ordusuna məxsus xeyli texnika və silah-sursat hərbi qənimət olaraq götürüldü, bir hissəsi isə məhv edildi. Zəfər paradında Bakının Azadlıq meydanından keçən hərbi texnikaların sırasında vaxtilə işğalçının istifadəsində olan yararlı və yararsız texnikaların da yer alması sevindirici məqam idi. Bu, milli qürur və iftixar hissi doğururdu.

Azərbaycan Odusunun gücləndirilməsi, döyüş hazırlığının inkişaf etdirilməsi bu gün də diqqətdə saxlanılır. Prezident, Ali Baş Komandan İlham Əliyev də dəfələrlə vurğulayıb ki, Silahlı Qüvvələrimizin inkişafı, möhkəmləndirilməsi prosesi bundan sonra da davamlı olacaq, ordumuzun dünyanın ən müasir silah və hərbi texnikası ilə təchiz edilməsinə prioritet istiqamət kimi yanaşılacaq. Ordumuz Vətən müharibəsində Ermənistan işğalçılarını ağır məğlubiyyətə uğradaraq torpaqlarımızdan qovsa da, erməni faşizminin nə qədər təhlükəli, məkrli olduğu hər kəsə məlumdur. Bu gün Ermənistan daxilindəki bəzi qüvvələr revanşist çağırışlarla çıxış edirlər. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan Ordusu hər zaman istənilən təxribatın qarşısını almağa hazır olmalıdır. Ermənistan isə Qarabağdakı rüsvayçı məğlubiyyətindən dərs almalı, nəticə çıxarmalıdır.

***Şair RAMALDANOV,***
***ehtiyatda olan polkovnik,***
***hərbi ekspert***

Xalq qəzeti.- 2021.- 26 iyun.- S.8.